Qaydalara əməl etməyənləri ağır cəza gözləyirdi. Məsələn, Nijmegendə kiminsə evində tapılan hər işarəsiz – möhürsüz karta görə 50 qulden cərimə kəsilirdi ki, bu da adi bir işçinin təxminən iki aylıq əməkhaqqına bərabər idi. Hollandiya əyalətində isə daha da irəli getdilər - hər hansı saxtakarlıq fiziki cəza və sürgün riski daşıyırdı. 1805-ci ildə vergi yoxa çıxdı, lakin çox keçmədi ki, hollandlar tezliklə fransızların hakimiyyəti altına düşdülər, onlar 1812-ci ildə oyun kartlarına 25 sent məbləğində vergini yenidən tətbiq etdilər. Bir ildən az müddətdə Napoleonun məğlubiyyəti və fransız işğalının sona çatması ilə bu vergi yenidən ləğv edildi. Sonuncu dəfə kart dəstinə vergi 1920-ci ildə tətbiq edilib. Bunun sayəsində hər il dövlət xəzinəsinə 200 minə yaxın qulden daxil olub, lakin qaçaqmalçılarla mübarizə xərcləri xeyli yüksək olub və 1927-ci ildə nəhayət, ləğv edilib.

**Çexiya Radio vergisi**

1923-cü ildə Çexoslovakiyada radio verilişləri yayımlanandan 5 ay sonra radio dinləmələri üçün vergi tətbiqi ilə bağlı qanun qüvvəyə minmişdir. Bu vergi Çexiyada indiyədək qüvvədədir və gəlirlər tele-radio stansiyalarının işinin yaxşılaşdırılmasına sərf edilir. Verginin adı “konsessioner yığımı”dır. Televizoru və radioqəbuledicisi olan hər kəs isə konsessioner adlandırılır.

**Belçika - Barbekü (manqal) vergisi**

Belçikanın vergi sistemi çox mürəkkəb və qarışıqdır. Elə bu səbəbdən də Belçikanın “barbekü vergisi” haqqında mif dünyanı dolaşmaqdadır.

2007-ci ildə Valloniyanın cənub regionunun hökuməti atmosferə karbon tullantıları ilə mübarizə üçün qəti tədbirlər görmək qərarına gəlir. Lakin metallurgiya sənayesinin, istilik elektrik stansiyalarının və aqrar sənaye müəssisələrinin emissiyalarının məhdudlaşdırılmasına yönəldilmiş tədbirlər həmin dövrdə çox baha başa gəlirdi. Bunun əvəzində barbekü vergisi haqqında qanunvericilik meydana gəldi. Öz bağçasında kabab bişirmək istəyən hər belçikalı hər “barbekü sessiyası”na görə 20 avro məbləğində vergi ödəməli idi. Maraqlısı odur ki, bütün bunlara nəzarət etmək üçün pilotsuz uçuş aparatları nəzərdə tutulmuşdu. Şübhəsiz, bu qanun layihəsinin müəllifləri KİV-də çox məşhurlaşdırlar – barbekü vergisi haqqında nəinki yerli, həm də dünya nəşrləri çoxlu sayda məqalələr tirajladılar. Bundan sonra yerli parlament bu qanundan imtina etdi. Səbəb ondan ibarət idi ki, reallıqda bu normaların yerinə yetirilməsi çox çətin idi, bəzi hallarda isə mümkün olmayan bir iş idi. 2007-ci ildə pilotsuz uçuş aparatlarının qiyməti çox baha olduğundan, bu fikirdən əl çəkdilər.

Lakin Belçika vergi sosteminin bu “qəribə kəşfi” bütün dünyaya yayıldı və “dünyanın ən gülməli 10 vergisi” siyahısına düşdü.

**İspaniya - Günəş vergisi**

İspaniyada tətbiq olunan qeyri-adi vergilər arasında Günəş vergisini göstərmək olar. Bu vergini tətbiq edən fərman 2015-ci ildə krallığın mühafizəkar hökuməti tərəfindən qəbul edilib. Enerji xərclərini azaltmaq və ətraf mühitə təsirlərini minimuma endirmək üçün günəş panelləri quraşdırmağı seçən insanlardan əslində istifadə etmədikləri elektrik şəbəkəsini saxlamaq üçün bir haqq ödəmək tələb edildi. 2018-ci ildə ölkədə sosialistlər hakimiyyətə gəldikdən sonra bu vergi ləğv edilib.

**Varlılardan vergi**

Çətin iqtisadi vəziyyətin fonunda krallıq hökuməti 2022-ci ildə varlılar üçün xüsusi verginin yaradılmasını təsdiqləyib. Söhbət 3 milyon avrodan çox sərvəti olan insanlardan gedir və faiz dərəcəsi 1,7-3,5% təşkil edir. Bu vergi nəticəsində Madrid xəzinəsi yüz milyonlarla avro əldə edə bilmişdir.

**Boş ev vergisi**

İspaniyada ölkənin bütün sakinlərinə şamil olunan rüsumlara əlavə olaraq, hər bir bölgə öz ödənişlərini tətbiq edə bilər. Məsələn, Kataloniya muxtar icmasında 15-ə yaxın ayrı-ayrı vergilər mövcuddur ki, bu da bölgəyə böyük əlavə vəsaitlər əldə etməyə imkan verir. Belə rüsumlar arasında boş evlərdən alınan vergi də var. Regional hakimiyyət orqanlarının qeyd etdiyi kimi, bu ödəniş "iki ildən artıq müddətdə heç bir səbəb olmadan boş qalan mənzilləri olan iri mülkiyyətçi statusuna malik olan şəxslərə" aiddir. Oxşar vergi Valensiya muxtar icmasında da mövcuddur və bunun sayəsində səlahiyyətli orqanlar bir ildə təxminən 7 milyon avro əldə ediblər.

**Kola vergisi**

Kataloniyada da tərkibində şəkər olan sərinləşdirici içkilərə vergi var. İspaniyanın bu bölgəsində bir banka Coca-Cola almaq istəyən hər kəs bunun üçün əlavə rüsum ödəməlidir. Təşəbbüs 2017-ci ildə qüvvəyə minib və harada istehsal olunmasından asılı olmayaraq şəkərlə zənginləşdirilmiş içkilərin istehlakını vergiyə cəlb edir. Ödəniş böyük deyil: 100 ml-də 8 q-dan çox şəkər olan içki üçün 1 litrinə 0,15 avro ödəmək lazımdır.

**Hazırladı:**
**Yeganə Məmmədova**

# Pambıq ipliyinin ixracından gəlirlər 16%-dən çox artıb




Bu ilin yanvar-iyun aylarında Azərbaycandan ixrac edilmiş pambıq ipliyinin miqdarı 5 min 418 ton olub.

Trend-in Dövlət Gömrük Komitəsinə istinadən verdiyi məlumata görə, bu miqdarda məhsul ixracından əldə olunan gəlirin həcmi 12,9 milyon ABŞ dolları olub.

Pambıq ipliyi ixracı ötən ilin eyni dövrü ilə müqayisədə, miqdar ifadəsi ilə 1 123 ton və ya 26,1%, dəyər ifadəsi ilə 1,8 milyon ABŞ dolları, yaxud da 16,2% artıb.

Belə ki, 2024-cü ilin yanvar-iyun aylarında Azərbaycandan ixrac edilən pambıq ipliyinin miqdarı 4 min 295 ton, dəyəri isə 11,1 milyon ABŞ dolları təşkil edib.

Qeyd edək ki, hesabat dövründə ixrac edilən pambıq ipliyinin ümumi ixracda payı 0,1%, qeyri-neft sektoru üzrə ixracda payı isə 0,74% olub.

Qeyd edək ki, 2025-ci ilin yanvar-iyun aylarında Azərbaycan xarici ölkələrlə 24,4 milyard ABŞ dolları dəyərində ticarət əməliyyatı aparıb.

Bu göstərici ötən ilin eyni dövrünə nisbətən 2,632 milyard ABŞ dolları və ya 12,1% çoxdur. Xarici ticarət dövriyyəsinin 12,878 milyard ABŞ dolları ixracın, 11,522 milyard ABŞ dolları isə idxalın payına düşüb. Son 1 ildə ixrac 0,2% azalıb, idxal isə 29,9% artıb.

Nəticədə, xarici ticarətdə 1,356 milyard dollarlıq müsbət saldo yaranıb. Bu da illik müqayisədə 2,677 milyard ABŞ dolları və ya 3 dəfə azdır.

## Tibbdə PR

# Empatiya əsasında PR: Auditoriya ilə emosional bağ qurmaq dövrü

*(əvvəli ötən sayımızda)*

**Sosial media və empatiyanın vacibliyi: Müasir PR-də yeni çağırışlar**

Son illərdə sosial media platformalarının sürətlə inkişafı və kütləvi yayılması ictimaiyyətlə əlaqələr (PR) sahəsində tam yeni bir dövrün başlanğıcını qoyub. Bu platformalar yalnız məlumatın sürətli yayılması və geniş auditoriyaya çatdırılması üçün vasitə olmaqla qalmayıb, həm də PR fəaliyyətində çevikliyi, şəffaflığı və həssaslığı zəruri edən mühüm amilə çevrilib.

Sosial medianın əsas xüsusiyyətlərindən biri onun auditoriyanın emosional impulslarına dərhal cavab vermək imkanı yaratmasıdır. Artıq brendlər, təşkilatlar və qurumlar üçün "sözünü demək" kifayət deyil - onların "sözlərini necə dediyi" və "vaxtında necə reaksiya verdiyi" ən azı eyni dərəcədə önəmlidir. Bu vəziyyət isə PR mütəxəssislərini daha diqqətli, anlayışlı və empatiya dolu kommunikasiya qurmağa məcbur edir.

***Bu kontekstdə sosial medianın yaratdığı çağırışlar aşağıdakı kimi özünü göstərir:***

*• Hər bir hadisəyə anında və həssas reaksiya zərurəti: İstər təbii fəlakət, istərsə də cəmiyyət üçün vacib sosial məsələ, fərdi facіə və ya başqa həssas mövzu olsun, ictimaiyyətin diqqəti buna çox tez yönəlir. Belə hallarda təşkilatın mövqeyi və onun təqdimat tərzi birbaşa brendin imicinə təsir edir. Uzun gecikmələr və ya laqeyd münasibət sosial mediada tənqid və etiraz dalğası doğura bilər.*

*• Yanlış ifadələr və süni görünən reaksiyalar: Sosial media auditoriyası çox həssasdır və qeyri-səmimi, şablon və ya "robot" kimi səslənən mesajları dərhal ayırd edir. Brendin və ya təşkilatın həssas mövzuda yanlış söz seçməsi, problemi düzgün başa düşməməsi və ya sadəcə formal bir açıqlama verməsi etibar itkisinə səbəb olur. Bu cür hallarda tənqid və hətta boykot kampaniyaları başlaya bilər.*

*• Empatiyanın və dürüstlüyün gücü: Əksinə, empatiya ilə dolu, insanlara hörmət edən, onların hisslərinə toxunan və dürüst yanaşan reaksiyalar ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Belə reaksiyalar insanlarda brendə qarşı müsbət münasibət, inam və sədaqət yaradır. Sosial media vasitəsilə belə səmimi və vicdanlı mövqelər daha geniş yayılır və brendin sosial məsuliyyətini nümayiş etdirir.*



*Dilarə Zamanova, Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi*

*• Sosial medianın ikitərəfli ünsiyyət imkanı: Ən əsası, sosial media brend və auditoriya arasında iki tərəfli dialoqu mümkün edir. Bu platformalar üzərindən istifadəçilərin fikirlərini, narahatlıqlarını, tənqid və təriflərini anlamaq, onlara cavab vermək və real əlaqə qurmaq mümkündür. Empatiya burada ən vacib vasitədir - başa düşmək, dinləmək və qarşılıqlı hörmət əsasında ünsiyyət qurmaq.*

Nəticə olaraq, sosial media PR sahəsində empatiyanı təkcə vacib deyil, həm də qaçılmaz elementə çevirib. Bu yeni reallıqda uğur qazanan brendlər və təşkilatlar auditoriyanın emosional ehtiyaclarını nəzərə alır, insanlarla səmimi əlaqələr qurur və hər zaman onların yanında olduğunu hiss etdirirlər. Bu isə yalnız müsbət imic və reputasiya deyil, həm də uzunmüddətli uğurun açarıdır.

**Tibb sahəsində empatiya əsaslı PR nümunələri**

***1. Həkimlərin və tibb müəssisələrinin xəstə hekayələrini paylaşması***

Xəstələrin müalicə prosesində yaşadıqları çətinliklər, onların ruh yüksəkliyi və müvəffəqiyyət hekayələri empatiya əsaslı kommunikasiya üçün güclü vasitədir. Məsələn, klinikalar sosial mediada və ya vebsaytlarında xəstələrin real təcrübələrini, onların duyğularını və həkimlərlə münasibətlərini paylaşır. Bu, digər xəstələrə dəstək olur və həmçinin klinikanın insanpərvər və anlayışlı olduğunu göstərir.

***2. Duyğusal dəstək kampaniyaları***

Məsələn, onkoloji xəstələr üçün "Biz birik!" kimi kampaniyalar hazırlanır. Bu kampaniyalarda təkcə müalicə prosesinə deyil, xəstələrin psixoloji vəziyyətinə də diqqət verilir, onların yanında olduğunuzu göstərən mesajlar paylaşılır. Sosial media vasitəsilə xəstələrə və onların ailələrinə motivasiya və dəstək verilir.

***3. Sağlamlıq işçilərinin şəxs qismində təqdimatı***

Tibb müəssisələri həkimləri və tibb işçilərini sadəcə peşəkarlar kimi deyil, həm də onları bir insan kimi - ailə, hobbi, duyğuları ilə birlikdə təqdim edirlər. Bu yanaşma auditoriyada həkimlərə qarşı empatiyanı artırır və onlarla daha yaxın, səmimi münasibət qurulmasına kömək edir.

***4. Təbii fəlakətlər və fövqəladə vəziyyətlər zamanı həssas yanaşma***

Pandemiya zamanı və ya təbii fəlakətlər baş verəndə tibb müəssisələri yalnız müalicə ilə kifayətlənməyib, həm də ictimaiyyətə həssas, insani mesajlarla müraciət etdilər. Məsələn, "Birlikdə güclüyük", "Siz tək deyilsiniz" kimi empatiya dolu şüarlar sosial mediada geniş yayıldı və insanlara ruh yüksəkliyi verdi.

***5. Xəstələrin suallarına şəffaf və anlayışlı cavablar vermək***

PR komandaları xəstələrin narahatlıqlarını dinləyir, onlara səmimi və başa düşülən cavablar verir. Məsələn, sosial media üzərindən immunizasiya və ya müalicə ilə bağlı geniş yayılmış suallara həssaslıqla yanaşaraq peşəkar, amma eyni zamanda empatiya dolu cavablar verilir.

***6. Psixoloji dəstək və maarifləndirici layihələr***

Klinikalar və xəstəxanalar yalnız fiziki sağlamlıqla deyil, psixoloji rifahla da maraqlandıqlarını göstərirlər. Məsələn, xəstələr və onların yaxınları üçün pulsuz psixoloji konsultasiya günləri təşkil etmək və ya sosial mediada stress, anksiyete ilə bağlı faydalı məsləhətlər paylaşmaq empatiya əsaslı PR-ə yaxşı nümunədir.

Bu nümunələr göstərir ki, tibb sahəsində empatiya əsaslı PR həm xəstələr və onların ailələri ilə daha səmimi münasibət qurmağa, həm də tibb müəssisələrinin cəmiyyətdə etibar və hörmət qazanmasına xidmət edir.

*(davamı gələn sayımızda)*

# "Uğur yolu"– Şəxsi inkişaf və karyerada uğurlu hədəfə doğru yol xəritəsi

***İlk addım özünü bir brend kimi formalaşdırmaqdır.***

Hər kəsin bir hekayəsi var, amma onu kim necə təqdim edir? Bu hekayə, sizin başqalarının gözündə qazandığınız reputasiya ilə bağlıdır və buna təcrübəniz, bacarıqlarınız, təhsiliniz, şəxsiyyətiniz, səs tonunuz, özünüzü necə təqdim etməyiniz və hətta istifadə etdiyiniz dil daxildir. "Brend" necə göründüyünüz və yaddaşda necə qalmağınızdır. Karyerada uğurlu nəticələrə nail olmaq özünü yaxşı tanımaqdan başlayır. Beləliklə, şəxsi brend kim olmağınız və nə ilə tanınmaq istədiyiniz arasındakı kəsişmədə yerləşir. Bununla siz başqalarına getmək istədiyiniz yeri göstərə bilcəksiniz və gələcək hekayənizi də idarə etmək, hədəfinizə çata bilmək imkanı əldə edəcəksiniz.

**Özünü necə təqdim edirsən...**

Liderlik mühakimə etmədən dinləmək, empatiya qurmaq və münasibətləri qorumaq sənətidir. Daxili sabitliyi qoruyaraq komanda daxilində etimad və əməkdaşlıq mühitinin yaradılması həm şəxsi inkişafın, həm də kollektiv uğurun təməlidir. Qarşılaşdığımız hər bir hadisə, yaranmış münaqişə və ya narazılıq zamanı ətrafla, işdə komanda ilə balansı qorumaq və anlıq davranışla deyil, daha şüurlu şəkildə özümüzü və ətrafımızı balansda saxlayaraq hadisəyə fokuslanmaq lazımdır.

***Yüksək performans üçün ilk növbədə aydın məqsədlər təyin etmək vacibdir.***

Məqsədlər hara getdiyinizi, hər hansı potensial çətinlikləri necə dəf edəcəyinizi və onu saxlamaq üçün nəyə ehtiyacınızın olduğunu anlamağa kömək edir. Hədəfləriniz çox iddialıdırsa, onlara çatmayanda çox güman ki, ruhdan düşəcəksiniz, ona görə məqsəd müəyyən etmək vacibdir. Məqsəd istiqamətdir, yerinə yetirmək istədiyiniz hədəfinizi



*Məmmədova Gülü, Mərkəzi Gömrük Hospitalı Marketinq üzrə mütəxəssis*

müəyyən etmək və ona nail olmaq üçün ölçülə bilən prosesdir. Hansı addımları atmaq lazımdır?

**Hissələrə bölün:** Böyük məqsədləri daha kiçik, idarəoluna bilən vəzifələrə bölün. Bu, Lego dəstini qurmaq kimidir - hər dəfə bir kərpiclə mübarizə aparın və tezliklə şah əsəriniz olacaq.

Böyümə strategiyası uğur üçün nəyə nail olmaq istədiyinizi (görünüş) və ümumiyyətlə, buna necə nail olunacağını (missiya) müəyyən etdikdən sonra nə ediləcəyini göstərən bir sıra variantlar hazırlayın:

• **Addım 1:** Nəticə olaraq nə etdiyinizi müəyyənləşdirin - "Çıxışa yönəlmiş" deyil, "nəticəyə yönəlmiş" qalmaq üçün diqqətli olun.

• **Addım 2:** Özünüz görünüşü (vizyon) müəyyən etmək üçün əsas dəyərləriniz, istəkləriniz və güclü tərəfləriniz haqqında düşünün.

**Özünüzü necə dərk edirsiniz?**

Emosional zəka emosiyalarınızı anlamaq və idarə etmək bacarığı, ətrafınızdakı insanlarla müsbət münasibət və möhkəm əlaqələr qurmağınıza imkan verən vacib bir bacarıqdır. Emosional zəka (EI) 100 faiz inkişaf etdirilə bilər. Ünsiyyət qurmaq, öz emosiyalarınızı və birlikdə işlədiyiniz insanların hisslərini başa düşmək və onları idarə etmək bacarıqlarınızı qiymətləndirmək üçün SWOT (güclü, zəif tərəflər, imkanlar, təhlükələr) təhlilindən istifadə edin:

• **Əsas güclər** - Əgər bir güc sizin cari rolunuz üçün vacibdirsə, o, "Əsas güc"ə çevrilir. Bunlar hər fürsətdə diqqət etməli, inkişaf etdirməli və vurğulamalı olduğunuz qabiliyyətlərdir.

• **İstifadə edilməmiş güclü tərəflər** - Sizin "İstifadə edilməmiş gücləriniz" cari rolunuzu yenidən formalaşdırmaqda və ya karyera istiqamətinizi dəyişməkdə sizə kömək edə bilər.

• **İnkişaf etməmiş bacarıqlar** - Əgər siz öz rolunuz üçün vacib olan bir işi görməkdən zövq alırsınızsa, həvəsiniz "İnkişaf etməmiş bacarıqları" məşq etmək istəyi ilə güclü tərəflərə çevirə bilər.

• **Zəif tərəflər** - Bəyənmədiyiniz və ya yaxşı olmadığınız, lakin rolunuz üçün vacib olan bacarıqlar "Zəif tərəflər" hissəsinə düşür. Bu bacarıqların fəal şəkildə inkişaf etdirilməsi gücə çevrilə bilər.

***Motivasiyalarınız haqqında aydın təsəvvürünüz varmı?***

Emosional intellektli (zəkalı) olmaq təkcə işlərin çətinləşdiyi zaman emosiyalarınızı bilmək demək deyil. Bu həm də sizin gündəlik etdiyiniz işlərin məqsədlərinizə, dəyərlərinizə və motivasiyalarınıza uyğun olduğunun fərqində olmağınız deməkdir.

Özünü dərk etmək güclü tərəflərinizi, dəyərlərinizi və inkişaf sahələrinizi dərk etməklə başlayır. Qüsurlarınızı qəbul edin və özünüzə qarşı xeyirxah olun. Baxış nöqtənizi dəyişdirin. Hər gün özünüzə sual verin: Bu gün dünəndən fərqli nə etdim? BU GÜN NƏYİ ÖYRƏNDİM?. Vaxtınızı idarə etməyi bacarın. Siz özünüz öz həyatınızın kapitanısınız, sadəcə olaraq, özünüzə inanın.

# Zakir İbrahimov 4-cü "Yüksəliş" müsabiqəsinin qalibləri ilə növbəti görüşlərini keçirib



"AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov 4-cü "Yüksəliş" müsabiqəsinin Mentorluq proqramı çərçivəsində müsabiqə qalibləri Aslan Həsənli və Rüfət Məmmədxanlı ilə növbəti fərdi görüşlərini keçirib.

Görüşlər zamanı beynəlxalq tədbirlərdə protokol qaydalarının tətbiqi, natiqlik bacarıqlarının inkişaf etdirilməsi və tərəfdaşlarla effektiv kommunikasiyanın qurulması mövzuları müzakirə olunub. İdarə Heyətinin sədri Zakir İbrahimov müsabiqə qalibləri ilə şəxsi təcrübəsini bölüşərək, onlara həmin istiqamətlərdə bilik və bacarıqlarını inkişaf etdirmələri üçün tövsiyələr verib. Zakir İbrahimov "Yüksəliş" müsabiqəsinin istedadlı gənclərə öz potensialını reallaşdırmaq, peşəkar bacarıqlarını artırmaq və liderlik keyfiyyətlərini inkişaf etdirmək üçün geniş imkanlar yaratdığını vurğulayaraq, proqram iştirakçılarını onlara təqdim olunmuş bu imkanlardan maksimum yararlanmağa dəvət edib.

Görüşlər mövzular ətrafında sual-cavab formatında davam edib.

Qeyd edək ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 26 iyul 2019-cu ildə imzaladığı Sərəncamla intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektivli rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis edilib.

# "AzerGold" QSC III Şuşa Qlobal Media Forumunda təmsil olunub



"AzerGold" QSC ölkəmizin mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilən III Qlobal Media Forumunda təmsil olunub. 52 ölkədən 140-a yaxın xarici qonağın, o cümlədən, 30-dan çox informasiya agentliyi, 7 beynəlxalq təşkilat və 80-ə yaxın media qurumu, həmçinin sahə üzrə əlaqəli digər təşkilatlardan nümayəndələrin qatıldığı Forum çərçivəsində dövlət şirkətinin ərsəyə gətirdiyi qızıl və gümüş məhsulları sərgilənib.

"AzerGold" QSC-nin stendində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə "Smartminting" texnologiyası əsasında üçölçülü formatda ərsəyə gətirilmiş "100 il və onun fövqündə bir irs" qızıl sikkəsi, İçərişəhərə, həmçinin Heydər Əliyev Fondunun 20 illiyinə həsr olunmuş qızıl sikkə, yeni nəsil "Bakı" gümüş sikkəsi və digər tematik sikkələr yer alıb.

Sərgidə dövlət şirkətinin fəaliyyəti, xüsusilə "Şuşa", "Qarabağ inciləri", "Natəvan" sikkələri, onların ifadə etdiyi tarixi-mədəni mesajlar barədə xarici qonaqlara ətraflı məlumatlar verilib. Stenddə, həmçinin yaxın zamanda satışa təqdim ediləcək "Laçın" qızıl və gümüş kolleksiyasının dizaynı ictimaiyyətə təqdim edilib. Nümunələr ziyarətçilər tərəfindən böyük maraqla qarşılanıb.



# "AzerGold" QSC-nin əməkdaşı "Yüksəliş" müsabiqəsinin qalibi olub

"AzerGold" QSC-nin Risklərin idarəolunması və daxili nəzarət şöbəsinin müdir müavini Orxan Nağıyev 5-ci "Yüksəliş" müsabiqəsinin qaliblərindən biri olub. O, 4 ay davam edən müsabiqədə iştirak etmiş 16 553 nəfər namizəddən ən yüksək bal toplayan 20 nəfər qalibin sırasına öz adını yazdırıb.




Orxan Nağıyev 2009-2013-cü illərdə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında menecment ixtisası üzrə bakalavriat, 2013-2015-ci illərdə isə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində biznesin təşkili və idarə edilməsi ixtisası üzrə magistratura təhsili alıb. O, 2021-ci ildən "AzerGold" QSC-də çalışır.

Qeyd edək ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Prezidenti İlham Əliyevin 2019-cu il 26 iyul tarixli Sərəncamı ilə təsis olunub. Müsabiqə intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektivli kadrların müəyyən edilməsi, onların stimullaşdırılması və ölkədə güclü kadr ehtiyatı bankının yaradılması məqsədilə təşkil olunur.

"AzerGold" QSC olaraq həmkarımız Orxan Nağıyevə təbriklərimizi çatdırır, gələcək fəaliyyətində müvəffəqiyyətlər arzulayırıq.

## "Alliance Business Centre" QSC-nin 31 dekabr 2024-cü il tarixinə BALANS HESABATI

| MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT QALIQLAR | | |
|---|---|---|
| | **31.12.2024** | **31.12.2023** |
| **AKTİVLƏR** | | |
| ***Uzunmüddətli aktivlər*** | | |
| Binalar, tikillilar va qurğular | 1 398 793,44 | 1 504 078,97 |
| Maşınlar va avadanlıq | 21 286,53 | 26 608,16 |
| Nəqliyyat vasitələri | - | - |
| Digər əsas vəsaitlər | - | - |
| Qeyri-maddi aktivlər | - | - |
| **Cəmi** | **1 420 079,97** | **1 530 687,13** |
| **QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | **-** | **-** |
| 1.3.1 Hazır mahsul | - | - |
| 1.3.2 Mallar | - | - |
| 1.3.3 Bitmamiş istehsal | - | - |
| 1.3.4 Sair ehtiyatlar | - | - |
| **Debitor borclar** | **23 894,04** | **143 190,75** |
| 1.4.1 Dövlət büdcəsinə (vergilər üzrə) | 18 422,32 | 136 808,44 |
| 1.4.2 Sair debitor borclar | 5 471,72 | 6 382,31 |
| 1.4.2.1 o cümladan xarici borclar | | - |
| **Pul vəsaitləri** | **119 541,74** | **82 683,63** |
| **Səhmlər va iştirak payları üzra maliyyə qoyuluşları** | **-** | **-** |
| **Dövlət qiymətli kağızları** | **-** | **-** |
| **Kapitallaşdırma üçün aktivlar** | **-** | **-** |
| **Gələcək dövrün xərcləri** | **2 770,12** | **3 179,50** |
| **Digər aktivlər** | **154 699,03** | **154 524,62** |
| **Cəmi** | **300 904,93** | **383 578,50** |
| **CƏMİ AKTİVLƏR** | **1 720 984,90** | **1 914 265,63** |
| **KAPİTAL** | | |
| Nizamnamə kapitalı | 394 898,00 | 394 898,00 |
| Hesabat dövrünün xalis mənfəəti | 196 676,19 | 80 479,79 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 132 618,63 | 52 138,84 |
| Emissiya galiri | - | - |
| Kapital ehtiyatları | - | - |
| **CƏMİ KAPİTAL** | **724 192,82** | **527 516,63** |
| **ÖHDƏLİKLƏR** | | |
| Bank kreditlari | - | - |
| o cümladan xarici borclar | - | - |
| Alınmış avanslar | 1 053,97 | 11 414,60 |
| Dövlət büdcəsinə vergi öhdəlikləri | 41 080,65 | 0,40 |
| Törəmə (asılı) müəssisələrə kreditor borcları | - | - |
| Sair kreditor borcları | 335,02 | 334,00 |
| o cümladan xarici borclar | - | - |
| **Gələcək dövrün gəlirləri** | **-** | **-** |
| **Digər öhdəliklər** | **954 322,44** | **1 375 000,00** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **996 792,08** | **1 386 749,00** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **1 720 984,90** | **1 914 265,63** |

| MƏNFƏƏT VƏ ZƏRƏR HESABATI | | |
|---|---|---|
| | **31.12.2024** | **31.12.2023** |
| **Qalıqlar** | **Məbləğ, manatla** | **Məbləğ, manatla** |
| Əsas əməliyyat gəlirləri | 609 680,03 | 463 536,26 |
| Satışın maya dəyəri | 204 454,88 | 194 260,68 |
| **Ümumi Mənfəət** | **405 225,15** | **269 275,58** |
| Sair əməliyyat gəlirləri | | **88,36** |
| İnzibati xərclər | 26 497,92 | 22 641,82 |
| Əməliyyat mənfəəti(zərəri) | 378 727,23 | 246 633,76 |
| Maliyyə gəlirləri | | 0,00 |
| Maliyyə xərcləri | | 0,00 |
| Fövqəladə gəlirlər | | 0,00 |
| Fövqəladə gəlirlər | | 0,00 |
| Amortizasiya ayırmaları, əsas vəsaitlərin təqdim edilməsi və ləğvi üzrə gəlirdən çıxılan xərclər | 110 607,16 | 125 004,79 |
| Gəlirdən çıxılan vergilər və yığımlar | 14 841,96 | 8 939,08 |
| Sair xərclər | 7 507,63 | 11 734,73 |
| Vergitutmadan əvvəl mənfəət (zərər) | **245 990,49** | **100 955,16** |
| Mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri | | |
| Mənfəət üzrə azadolma, güzəşt və mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri çıxılmaqla vergiyə cəlb olunan mənfəət | **245 990,49** | **100 955,16** |
| Mənfəət vergisi | 49 314,30 | 20 191,03 |
| Hesabat dövründə xalis mənfəət | **196 676,19** | **80 764,13** |
| **Mənfəətdə iştirak payı:** | | |
| Səhmdarların payı | 1,25 | 0,51 |
| Azlıqların payı | | |
| **Səhmdarların payına düşən bir səhmin mənfəəti:** | | |
| 1(bir) səhmin əsas mənfəəti | 1,00 | 0,41 |

| KAPİTALDA DƏYİŞİKLİKLƏR HESABATI | | | |
|---|---|---|---|
| | **Nizamnamə kapitalı** | **Bölüşdürülməmiş mənfəət** | **Cəmi kapital** |
| **01 yanvar 2023-cü il tarixə qalıq** | **394 898,00** | **52 138,84** | **447 036,84** |
| 2023-cü il üzrə xalis mənfəət | | 80 479,79 | **80 479,79** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | - |
| Elan edilmiş dividendlər | | | - |
| Maddələr arasında köçürmələr | | | - |
| Mənfəət və ehtiyatların istifadəsi | | - | - |
| **01 yanvar 2024-cü il tarixə qalıq** | **394 898,00** | **132 618,63** | **527 516,63** |
| 2024-cü il üzrə xalis mənfəət | | 196 676,20 | 196 676,20 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | - |
| Elan edilmiş dividendlər | | - | - |
| Maddələr arasında köçürmələr | | | - |
| Mənfəət və ehtiyatların istifadəsi | | | - |
| **01 yanvar 2025-ci il** | **394 898,00** | **329 294,83** | **724 192,83** |

| PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT | | |
|---|---|---|
| | **2024-cü il** | **2023-cü il** |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Hesabat dövründə mənfəət /zərər | 245 990,49 | 100 955,16 |
| Mənfəət vergisi üzrə xərclər | - 49 314,30 | - 20 191,03 |
| **Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər:** | | |
| · Əsas vəsaitlərin amortizasiyası | 110 607,16 | 125 004,79 |
| · Qeyri-maddi aktivlərin amortizasiyası | | |
| · Əsas vəsaitlərin satışından və xaricolmasından gəlirlər/zərərlər | | |
| **Dövriyyə kapitalında dəyişikliklər:** | | |
| · Ehtiyatlar üzrə artma/azalma | - | - |
| · Əməliyyat debitor borclarında artma/azalma | 119 296,71 | 29 017,55 |
| · Sair qısamüddətli aktivlərdə artma/azalma | 174,41 | - 9 498,04 |
| · Sair maliyyə aktivləri | | |
| · Cari vergi öhdəlikləri | 41 080,25 | - 0,00 |
| · Əməliyyat kreditor borclarında artma/azalma | 1,02 | 244,00 |
| · Sair qısamüddətli öhdəliklərdə artma/azalma | - 420 677,56 | 115 000,00 |
| Əməliyyat fəaliyyətinə aid fövqəladə pul vəsaitlərinin hərəkəti | | |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **47 158,18** | **340 532,43** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | - | - |
| Əsas vəsaitlərin alınması | | |
| Komisyon yığımları və ödənilmiş digər oxşar məbləğlər daxil olmaqla, uzunmüddətli qeyri-maliyyə aktivlərinin əldə edilməsi üçün, eləcə də uzunmüddətli qeyri-maliyyə aktivlərinə aid edilən, kapitallaşdırılmayan məsrəfləri ilə əlaqədar pul vəsaitlərinin xaricolmaları, uzunmüddətli qeyri-maliyyə aktivlərinin satışından pul vəsaitlərinin daxilolmaları | | |
| Səhm alınması üçün pul vəsaitinin xaric olması | | |
| İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | - | - |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **-** | **-** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| Səhm buraxılışı | | |
| Kapital ehtiyatlarının dəyişməsi | | |
| Təsisçilərin borcunun bölüşdürülməmiş mənfəət hesabına əvəzləşdirilməsi | | |
| Mənfəətin istifadəsi | | |
| Dividendlər və buna oxşar ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti** | | |
| **Pul vəsaitlərinin və bank overdraftlarının xalis artması (azalması)** | 47 158,18 | 340 532,43 |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | **82 683,63** | **105 344,33** |
| **İl ərzində pul vəsaitlərinin və onların ekvivalentlərinin artması (azalması)** | 47 158,18 | 340 532,43 |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | **119 541,74** | **82 683,63** |

## "PEŞƏYÖNÜMLÜ TƏHSİLİN İNKİŞAFINA YARDIM" İCTİMAİ BİRLİYİ LAYİHƏ İCRASINI TAMAMLADI





Azərbaycan Respublikası "Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi"nin verdiyi kiçik qrant hesabına "Peşəyönümlü təhsilin inkişafına yardım" İctimai Birliyi "TƏHSİLDƏ İNNOVATİV YANAŞMALARIN TƏBLİĞİ" adlı layihənin icrasını tamamladı. Layihə 3 ay davam edib. Layihənin rəhbəri bu QHT-nin sədri, dos. İlham Əhmədovdur.

Layihənin məqsədi ali məktəblərdə təhsilin təşkilinə innovativ yanaşmalar barədə dəyirmi masalar təşkil etmək idi. Bu məqsədlə 2 universitetdə - ADA Universitetində və ADPU-da müzakirələr aparılmışdı. Məqsəd beynəlxalq təcrübə əsasında universitet menecerlərini, professor-müəllim heyətini, magistrləri müasir təhsildə innovativ yanaşmalar, universitetlərin innovativ infrastruktur modelləri, təhsildə və elmdə rəqəmsal transformasiyalar haqda məlumatlandırmaq idi. Belə layihənin icrası nəticəsində milli universitetlərimizin fəaliyyəti daha səmərəli ola bilər.

Məlumdur ki, universitetlərimiz 20 ildir ki, qlobal reytinqlərdə zəif nəticələr göstərirlər. Çünki universitetlərimiz qlobal təhsil məkanında olan təcrübələrdən, innovasiyalardan az faydalanırlar, bu səbəbdən də rəqabətədavamlı deyillər.

Təcrübə gösrtərir ki, bizim universitetlərimiz təhsil və elm sahəsində nəinki real, diqqətəlayiq innovasiyalar yarada bilmir, heç digər ölkələrin universitetlərində olan innovasiyaları tətbiq etmirlər. Məsələn, 20 ildə heç bir universitetimiz Boloniya Prosesi şərtlərinə uyğunlaşa bilmədi.

Bu səbəblərdən universitetlərdə belə maarifləndirici dəyirmi masaların keçirilməsi faydalıdır.

"Peşəyönümlü təhsilin inkişafına yardım" İctimai Birliyi əvvəlki illərdə də universitetlərdə belə aktual mövzularda dəyirmi masalar keçirmişdi. Məsələn, 2024-cü ildə "Universitetlərin rəqabət qabiliyyəti" mövzusunda ADA universitetində, SDU-da, ADPU-da, UNEC-də müzakirələr təşkil edilmişdi. Bu tədbirlərdə universitetlərin əməkdaşları, təhsil ekspertləri, jurnalistlər iştirak etmişdilər. Layihə rəhbəri dos. İlham Əhmədovun məruzəsi hər dəfə tədbir iştirakçılarının böyük marağına səbəb olmuşdu.

## Sumqayıt Kimya Sənaye Parkında fəaliyyət göstərən müəssisələrin sayı artıb

Cənubi Qafqazın ən böyük sənaye parkı olan Sumqayıt Kimya Sənaye Parkında hazırda investisiya portfeli 6 milyard manatdan çox olan 39 sahibkarlıq subyektinə rezidentlik statusu verilib ki, bunlardan da 28-i artıq fəaliyyət göstərir.

Bu barədə İqtisadi Zonaların İnkişafı Agentliyindən bildirilib.

Qeyd edilib ki, sahibkarlar tərəfindən görülən işlərə bugünədək 5,56 milyard manat investisiya yatırılıb, 6300-dən artıq daimi iş yeri yaradılıb.

2015-ci ildən 2025-ci ilin I yarımilliyi daxil olmaqla Sumqayıt Kimya Sənaye Parkının rezidentləri tərəfindən ümumilikdə 14,37 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, bunun da 5,17 milyard manatlıq hissəsi ixracın payına düşür. Cari ilin I yarısında Sənaye Parkında 1,14 milyard manatlıq məhsul satışı olunub ki, bunun da 544,8 milyon manatlıq hissəsi ixrac edilib. Ötən ilin analoji dövrü ilə müqayisədə ixrac təqribən 20%-ə yaxın artıb.

Parkda istehsal edilən tikinti kimyəvilərin, polad və polimer boruların, sürtkü yağlarının, polimerlərin, karbamidin, müxtəlif çeşiddə kabellərin, şüşə lövhələrin, keramik plitələrin və s. məhsulların ixracı istiqamətində uğurlar əldə edilib. Əsasən bu növ məhsullar dünyanın 70-dən artıq ölkəsinə "Made In Azerbaijan" brendi adı altında ixrac olunub.

Qeyd edək ki, Sumqayıt Kimya Sənaye Parkında sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli investisiya mühiti yaradılıb. Belə ki, burada sahibkarlar dövlət vəsaiti hesabına hazır infrastrukturla təmin olunurlar. Həmçinin Parkın rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından tam azad olunurlar. Parkın rezidentlərinə indiyədək 912 ədəd təsdiqedici sənəd verilib ki, bunun nəticəsində rezidentlər texnika və texnoloji avadanlıqların idxalı zamanı 400 milyon manatdan çox vəsaitlərinə qənaət ediblər.

## Tikinti sahəsinə bir ayda 57 milyon manat biznes krediti verilib



Bu ilin iyulun 1-nə Azərbaycan banklarının tikinti sahəsinə verilmiş biznes kredit portfeli 1,543 milyard manat təşkil edib.

Trend bu barədə Mərkəzi Bankdan məlumat əldə edib.

Sözügedən sahə üzrə kredit portfeli aylıq müqayisədə 57 milyon manat (3,8%), ötən ilin eyni dövrü ilə nisbətdə isə 156 milyon manat (11,2%) artıb.

Belə ki, tikinti sahəsi üzrə banklar tərəfindən verilmiş biznes kreditlərinin məbləği 2025-ci ilin iyunun 1-nə 1,486 milyard manat, ötən ilin iyulun 1-nə isə 1,387 milyard manat təşkil edib.

Qeyd edək ki, cari ilin iyul ayının 1-nə Azərbaycanda bankların kredit portfelinin həcmi 28,472 milyard manata bərabər olub. Kredit portfelinin 15,144 milyard manatı biznes kreditləri, 8,898 milyard manatı istehlak kreditləri, 4,430 milyard manatı isə ipoteka kreditləri təşkil edib.

## Sənaye sahəsi üzrə biznes kredit portfeli illik ifadədə kiçilib



Bu ilin iyulun 1-nə Azərbaycan banklarının sənaye sahəsinə verilmiş biznes kredit portfeli 2,688 milyard manat təşkil edib.

Trend bu barədə Mərkəzi Bankdan məlumat əldə edib.

Sözügedən sahə üzrə kredit portfeli aylıq müqayisədə 19,9 milyon manat (0,7%) artıb, ötən ilin eyni dövrü ilə nisbətdə isə 46 milyon manat (1,7%) azalıb.

Belə ki, sənaye sahəsi üzrə banklar tərəfindən verilmiş biznes kreditlərinin məbləği 2025-ci ilin iyunun 1-nə 2,668 miyard manat, ötən ilin iyulun 1-nə isə 2,734 milyard manat təşkil etmişdi.

Qeyd edək ki, cari ilin iyul ayının 1-nə Azərbaycanda bankların kredit portfelinin həcmi 28,472 milyard manata bərabər olub. Kredit portfelinin 15,144 milyard manatını biznes kreditləri, 8,898 milyard manatını istehlak kreditləri, 4,430 milyard manatını isə ipoteka kreditləri təşkil edib.

## Beynəlxalq məhkəmədə Ermənistana qarşı 1,5 milyard dollarlıq iddia araşdırılır

Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsində Ermənistana qarşı ümumilikdə 1,5 milyard ABŞ dolları məbləğində müxtəlif məzmunlu beş iddia araşdırılır.

"Sputnik-Armenia" xəbər verir ki, bu barədə "Johovurd" qəzeti məlumat yayıb.

Bildirilib ki, iddiaçılar arasında "Walnord Finance Limited", "Amulsar Investor Ventures" LLC, "Sanitek C.a.r.l.", "Sari Haddad & Elias Doumet" и "Air Arabia" kimi böyük şirkətlər də var.

# "Bakcell"in dəstəyi ilə "YAŞAT" yay məktəbi Londonda

İnnovasiya və sürət lideri "Bakcell"in dəstəyi və "YAŞAT" Fondunun təşkilatçılığı ilə Londonda üçüncü "YAŞAT" yay məktəbi başlayıb. Yay məktəbində ölkə üzrə 9-cu sinif buraxılış imtahanlarında yüksək nəticə göstərmiş 10 şəhid övladı iştirak edir.




Proqramın əsas məqsədi şəhid övladlarının dünyagörüşünü genişləndirmək, dil biliklərini artırmaq, fərdi bacarıqlarını inkişaf etdirmək və beynəlxalq mühitdə aktiv iştiraklarına imkan yaratmaq, eləcə də asudə vaxtlarının səmərəli təşkilinə dəstək göstərməkdir.

İyulun 20-dən avqustun 3-dək davam edəcək "YAŞAT" yay məktəbi London Universitet Kollecində təşkil olunub. Proqram müddətində iştirakçılar hər gün 3 saatlıq intensiv ingilis dili dərslərində iştirak edir, şəhər ekskursiyaları, tarixi abidələrə və muzeylərə maraqlı səfərlərlə zəngin bir təcrübə yaşayırlar. "Bakcell" bu təşəbbüslə cəmiyyətin davamlı inkişafına töhfə verən korporativ sosial məsuliyyət (KSM) və dayanıqlılıq strategiyasını uğurla davam etdirir. Gənclərin dəyişən dünyada innovativ düşüncə tərzinin formalaşmasına və fərdi inkişafına yönəlmiş sosial layihələrə dəstək şirkətin əsas prioritetlərindəndir.

"NEQSOL Holding"in tərkibinə daxil olan "Bakcell" "YAŞAT" Fondu ilə birgə şəhidlərin ailə üzvlərinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə sosial dəstək layihələrini davamlı olaraq həyata keçirir. Bu əməkdaşlıq "NEQSOL Holding" və "YAŞAT" Fondu arasında imzalanan Anlaşma Memorandumu çərçivəsində həyata keçirilir.

# Trampın gömrük rüsumlarının qlobal iqtisadiyyata mümkün zərəri hesablanıb

"Bloomberg Economics" hesab edir ki, 2027-ci ilə qədər qlobal iqtisadiyyat ABŞ prezidenti Donald Trampın gömrük tarifləri səbəbindən 2 trilyon dollar itirə bilər. Lakin uzunmüddətli perspektivdə zərərin bir hissəsi istehsal zəncirlərinin yenidən qurulması ilə kompensasiya ediləcəkdir.

"Bloomberg Economics" hesab edir ki, 2027-ci ilə qədər qlobal iqtisadiyyat ABŞ prezidenti Donald Trampın tarifləri (gömrük rüsumları və ya gömrük vergiləri) tətbiq etməsi səbəbindən 2 trilyon dollar itirə bilər.

Bloomberg yazır ki, ABŞ-də tariflərin səviyyəsi hazırda 1930-cu illərdən bəri ən yüksək səviyyədədir və Trampın prezidentliyinin əvvəlindən təxminən altı dəfə çoxdur. Agentliyin iqtisadçıları ABŞ-nin orta tarifini keçən ilki 2,5% ilə müqayisədə 13,5% səviyyəsində qiymətləndirirlər. Avropa Birliyi ilə tarif sazişi bağlandıqdan sonra bu rəqəm 16%-ə yüksələcək.



Aprelin əvvəlində ABŞ Prezidenti Donald Tramp dünyanın onlarla ölkəsi üçün gömrük tarifləri elan etdi. Lakin vergilər dərhal tətbiq edilmədi və danışıqlar üçün vaxt verildi - son müddət avqustun 1-də başa çatır. Bəzi ölkələr tarif razılaşmalarına nail ola biliblər. İyulun 27-də Avropa İttifaqı ilə razılaşma elan edilib. Avropa məhsulları üçün 30% əvəzinə 15% baza tarifi nəzərdə tutulur, Avropa isə ABŞ-a 600 milyard dollar investisiya qoymalı və onlardan 750 milyard dollar enerji almalıdır. Avropa Komissiyasının sədri Ursula fon der Leyen 15%-lik tarifi əldə edilə biləcək "ən yaxşı" variant adlandırıb.

Almaniyanın Kiel İnstitutunun iqtisadçıları ölkədə istehsalın azalmasının 15%-ə çata biləcəyini hesablayıblar. İqtisadçılar qeyd ediblər ki, bütövlükdə Avropa İttifaqında bu rəqəm 11%-ə çata bilər.

# Avropa İttifaqında ən çox miqrant həyatı yaşayan rumınlardır

Hazırda Avropa İttifaqına üzv ölkələrdə 3,1 milyondan çox rumın vətəndaşı yaşayır ki, bu da ölkə əhalisinin 16,28 faizini təşkil edir. Bu göstəriciyə görə Rumıniya Aİ-də birinci yeri tutur.

Trend xəbər verir ki, statistikaya əsasən, siyahının ikinci pilləsində 570 mindən çox vətəndaşı digər Aİ ölkələrində yaşayan Xorvatiya (14,9 faiz) qərarlaşıb. İlk üçlüyü isə 753 min vətəndaşı (11,68 faiz) xaricdə olan Bolqarıstan tamamlayır.

Qeyd edilir ki, Aİ-də daxili miqrantların ən az olduğu ölkələr Malta (0,92 faiz), Fransa (0,91 faiz) və Almaniyadır (0,9 faiz).

Məlumatda vurğulanır ki, Rumıniya diasporu ölkə əhalisinin əhəmiyyətli hissəsini təşkil edir və iqtisadi, siyasi proseslərə mühüm təsir göstərir. 2025-ci ilin fevralına olan məlumatlara əsasən, ümumilikdə 5,7 milyon rumın ölkə hüdudlarından kənarda yaşayır. Onların əsas hissəsi İtaliyada (1,1 milyon), İspaniyada (1 milyon), Böyük Britaniyada (1 milyonadək), Almaniyada (800 min) və ABŞ-da (460 min) məskunlaşıb.



# BMT-dən Qəzzadakı aclıq böhranı ilə bağlı açıqlama




Qəzzaya sızan yardımlar selə çevrilməlidir.

Bunu BMT-nin Baş katibi Antonio Quterreş deyib. O, bildirib ki, Qəzza hazırda aclığın astanasındadır.

Qəzzada fələstinlilərin misli görünməmiş bir humanitar fəlakət yaşadığını qeyd edən Quterreş bunun xəbərdarlıq yox, bütün dünyanın gözü qarşısında baş verən bir reallıq olduğunu vurğulayıb:

***"Qəzzaya sızan yardım indi sel kimi axmalıdır. Qida, su, dərman və yanacaq Qəzzaya fasiləsiz və maneəsiz çatmalıdır. Bu, bizim ümumi insanlığımızın sınağıdır və uğursuzluğa düçar ola bilmərik".***

# Səudiyyə Ərəbistanı Suriyanı elektrik enerjisi ilə təmin edəcək

Səudiyyə Ərəbistanı və Suriya energetika sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalayıblar. Trend xəbər verir ki, bu barədə Səudiyyə Ərəbistanının Energetika Nazirliyi məlumat yayıb.

Məlumata görə, sənəd Səudiyyə Ərəbistanının energetika naziri şahzadə Əbdüləziz bin Səlmanın Ər-Riyadda Suriyanın energetika naziri Məhəmməd əl-Bəşir ilə görüşündən sonra imzalanıb.

Razılaşma neft və qaz, elektrik enerjisi, neft-kimya sənayesi, bərpa olunan enerji mənbələri, enerji səmərəliliyi və telekommunikasiya kimi sahələri əhatə edir. Tərəflər həmçinin, enerji layihələrinin tənzimlənməsi və həyata keçirilməsi sahəsində təcrübə mübadiləsi və investisiya imkanlarını müzakirə ediblər.




# Hacı Xanhüseyn Hüseynağa oğlu Kazımlı



***Hacı Xanhüseyn Hüseynağa oğlu Kazımlı 1942-ci ildə İmişli rayonunun Ağaməmmədli kəndində anadan olmuş və 1960-cı ildə həmin kənddəki orta məktəbi əla qiymətlərlə bitirmişdir. Bir neçə il kənddə əmək fəaliyyəti ilə məşğul olduqdan sonra 1962-ci ildə Azərbaycan Dövlət Universitetinin İqtisad fakültəsinə daxil olmuşdur.***

Həmin fakültənin bazasında 1966-cı ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun yaranması ilə əlaqədar 1967-ci ildə bu institutu bitirmiş, təyinat zamanı təhsil əlaçısı kimi institutda saxlanılaraq aspiranturaya qəbul edilmişdir. Həm tələbəlik illərində, həm aspirantura dövründə, həm də sonrakı bütün pedaqoji fəaliyyəti dövründə özünün fəallığı ilə həmkarlarından fərqlənmişdir. Yəni, hələ institutun III, IV kurslarında oxuyarkən tələbə elmi cəmiyyətinin sədri, institut komsomol komitəsinin katibi, tələbə həmkarlar təşkilatının sədri vəzifələrində çalışmışdır.

1967-1994-cü illərdə fakültə partiya təşkilatının katibi, institut partiya komitəsi sədrinin müavini, institut həmkarlar komitəsinin sədri, kafedra müdiri, prorektor və digər vəzifələrdə çalışmışdır. 1971-ci ildə dissertasiya işini Moskva şəhərində müvəffəqiyyətlə müdafiə edərək iqtisad elmləri namizədi, 1989-cu ildə isə Tbilisi şəhərində iqtisad elmləri doktoru alimlik dərəcəsi almışdır.

İqtisad elmləri doktoru, professor Xanhüseyn Kazımlı 1991-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetində "Qiymət" kafedrasına rəhbərlik etməklə həm də sonralar iki vəzifəni eyni vaxtda apararaq bu institutun prorektoru vəzifəsində işləmişdir. 1994-cü ildən 1998-ci ilə qədər iqtisadiyyat Nazirliyi nəzdində Baş qiymətlər idarəsinin rəisi və 12 mart 1998-ci ildən 30 may 1999-cu ilə qədər Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi qanunvericilik şöbəsinin müdiri vəzifəsində çalışmışdır. **1999-cu ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. I, II, III, IV, V çağırış Milli Məclisin deputatı olmuşdur.** Azərbaycan Sosial Rifah Partiyasının 1994-cü ildə təsis qurultayı keçirilmiş və Xanhüseyn Kazımlı partiyanın sədri seçilmişdir. **2002-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən "Şöhrət" ordeni ilə təltif edilmişdir.**

Respublikada iqtisadçı kadrların, eləcə də maliyyə, vergi, və qiymət məsələləri ilə məşğul olan mütəxəssislərin hazırlanmasında xüsusi xidmətləri vardır. Beynəlxalq Qiymətləndiricilər Cəmiyyətinin üzvü idi. Elmi yaradıcılığı da məhsuldar olmuş, 55-dən çox monoqrafiya və dərslik, 7 tədqiqat əsəri və 350-dən artıq elmi-publisistik məqalənin müəllifi kimi Azərbaycan iqtisadiyyat elminə dəyərli töhfələr vermişdir. Əsərlərinin bir qismi respublikamızın hüdudlarından kənarda nəşr edilmişdir.

Tanınmış alim, təcrübəli pedaqoq, ictimai-siyasi xadim, iqtisad elmləri doktoru, professor Xanhüseyn Kazımlı xalqımızın milli birliyinin daim təmin edilməsi, əzəli mənəviyyatının müqəddəsliyi uğrunda danılmaz xidmətlər göstərən əsl Azərbaycan ziyalılarından biri idi.

**Xanhüseyn müəllimin əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq.**

**Allah rəhmət eləsin!**

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə Milli Məclisin sabiq deputatı, "Şöhrət" ordenli
**XANHÜSEYN KAZIMLININ**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Akademik Ziyad Səmədzadə professor Elçin Xəlilova oğlu
**ANARIN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

AMEA-nın müxbir üzvü, professor Qorxmaz İmanov
Milli Məclisin sabiq deputatı, "Şöhrət" ordenli
**XANHÜSEYN KAZIMLININ**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Professor Eldar Quliyev Milli Məclisin sabiq deputatı, "Şöhrət" ordenli
**XANHÜSEYN KAZIMLININ**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Professor Vahid Novruzov Milli Məclisin sabiq deputatı, "Şöhrət" ordenli
**XANHÜSEYN KAZIMLININ**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Professor Bəyalı Ataşov Milli Məclisin sabiq deputatı, "Şöhrət" ordenli
**XANHÜSEYN KAZIMLININ**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Professor Fuad Hacızadə və professor Elşən Hacızadə
Milli Məclisin sabiq deputatı, "Şöhrət" ordenli
**XANHÜSEYN KAZIMLININ**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Professor Elşən Hacızadə və professor Fuad Hacızadə professor Elçin Xəlilova oğlu
**ANARIN**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"İqtisadiyyat" qəzetinin Baş redaktoru Aytən Səmədzadə
Milli Məclisin sabiq deputatı, "Şöhrət" ordenli
**XANHÜSEYN KAZIMLININ**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Elşad Səmədzadə Milli Məclisin sabiq deputatı, "Şöhrət" ordenli
**XANHÜSEYN KAZIMLININ**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin kollektivi
Milli Məclisin sabiq deputatı, "Şöhrət" ordenli
**XANHÜSEYN KAZIMLININ**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**